Şahin Vaqif oğlu Bayramov

UOT: 330 34; 330.35; JEL: L39.

Sahibkarlıq səviyyəsinin xarici ticarətlə qarşılıqlı təsirinin qiymətləndirilməsi

Xülasə

Məqalədə sahibkarlıq kateqoriyasına ölçüləbilən göstərici kimi yanaşaraq, onun bəzi makroiqtisadi göstəricilərə təsiri panel analizi vasitəsilə qiymətləndirilmişdir. Sahibkarlıq göstəricisi kimi "özəl sektora ayrılan yerli kreditlərin ÜDM-də payı" əsas götürülmüşdür. Panel analizlərin əsas nəticəsi ondan ibarətdir ki, "özəl sektora ayrılan yerli kreditlərin ÜDM-də payı" göstəricisinin adambaşına ÜDM həcmi iqtisadi inkişaf üçün zəruri amillərdən biridir. "Özəl sektora ayrılan yerli kreditlərin həcminin illik dəyişməsinin ÜDM artımına təsirinin panel analizi deməyə əsas verir ki, bu iki göstərici arasındakı əlaqə universal deyil və ölkələrin iqtisadi vəziyyətindən çox asılıdır. Panel analizin nəticələri sübut edir ki, "özəl sektora verilən kreditlərin ÜDM-də payı" göstəricisi xarici ticarət dövriyyəsinin ÜDM-dəki payına təsir etmir.

Açar sözlər*: *sahibkarlıq səviyyəsi, biznes mühiti, xarici ticarət, iqtisadi artım

Giriş

Ölkələrin iqtisadi inkişaf səviyyəsinin müxtəlifliyi, hər hansı bir ölkənin digərlərinə nisbətən daha varlı və uğurlu inkişafının səbəbləri iqtisad elmini həmişə maraqlandırıb. Nə üçün ölkələrin iqtisadi artım səviyyələri və artım templəri bir-birindən fərqlidir? Hətta bəzi ölkələrdə bir regionun inkişaf səviyyəsinin digərlərindən ciddi fərqlənməsi nə ilə bağlıdır? Qlobal səviyyədə maliyyə və ya ticarət rejimlərinin dəyişiklikləri nə üçün bəzi ölkələrə daha ciddi, bəzilərinə isə zəif təsir göstərir? Bu və ya digər suallar ölkə iqtisadiyyatının davamlılığı ilə bağlıdır. Hər bir ölkə istəyir ki, iqtisadi cəhətdən davamlı və dayanıqlı inkişaf etsin. Çünki, ölkənin iqtisadi təhlükəsizliyi onun davamlılığından asılıdır. Bütün bu suallar daha konkret şəkildə Azərbaycan iqtisadiyyatına da aiddir. Belə ki, Azərbaycan iqtisadiyyatında son 20 ildə ÜDM həcmi artmaqdadır. Ölkəyə neft və qaz ixracından böyük həcmdə pul gəlir. Bu pulların müəyyən hissəsi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı üçün investisiya olaraq, yönəldilir. İstehlak həcmi, dövlət xərcləri də artmaqdadır. Bütün bunlar deməyə əsas verirmi ki, Azərbaycan iqtisadiyyatının inkişafı dayanıqlı və ya davamlıdır. Əlbəttə bu suala cavab vermək üçün biz iqtisadiyyatın davamlılığını kəmiyyətcə qiymətləndirməliyik.

"Sahibkarlıq" iqtisadi kateqoriya kimi (ədəbiyyata baxış)

İqtisadiyyatın davamlılığının qiymətləndirilməsi üçün zəruri olan göstəricilərin birincisi ölkədə "sahibkarlıq səviyyəsidir". Sahibkarlığın iqtisadi mahiyyəti və onun iqtisadi inkişafa təsiri məsələsinin kəmiyyətcə qiymətləndirilməsi o qədər də asan deyil. Sahibkarlıqla bağlı digər elm sahələrində, məsələn, psixologiyada, menecmentdə və sosiologiya elmində xeyli tədqiqatlar var. Amma sahibkarlığın iqtisadi mahiyyəti ilə bağlı, xüsusilə, onun iqtisadi inkişafa təsirləri ilə bağlı tədqiqatlar azdır. İqtisadi nəzəriyyədə bu problem Joseph Schumpeter, Ludwig von Mises, Friedrich A.Hayek, Frank Knight və Israel Kirzner tərəfindən müxtəlif aspektlərdən tədqiq edilib. Sahibkarlıq səviyyəsinin iqtisadiyyata təsirləri ilə bağlı iqtisadi nəzəriyyəyə böyük töhvəsi olan iqtisadçılardan biri J.Şumpeterdir. Şumpeter hesab edirdi ki, kapitalizm və sahibkarlıq əl-ələ verərək inkişaf edir. Marks hesab edirdi ki, kapitalizm o zaman inkişaf edir ki, maliyyə resursları, onlar üzərindəki nəzarət özəl sektora məxsus olur. Yeni istehsal üsulları, yeni bazarların yaradılması, yeni tələbat mallarının formalaşması, istehsal metodlarında səmərəliliyin artırılması, yeni bazarların axtarışı və yeni istehlak mallarının yaradılması və sair kapitalizmin inkişafına stimul yaradır. Şumpeterin yanaşmasına görə sahibkarlıq kapitalizmin hərəkətverici qüvvəsidir. Sahibkarlığın iqtusadi kateqoriya olaraq mahiyyəti ilə bağlı iqtisadi ədəbiyyatda müxtəlif yanaşmalar var. Məsələn, F. Hayek hesab edirdi ki, sahibkar tamamilə fərqli gələcək yaradır. Lakin, sahibkar inanmalıdır ki, gələcəyi yaratması üçün onun varlığı qəbul edilir və zəruridir. F.Hayekə görə sahibkarlığın yaşaması üçün mədəni təkamül və rəqabətli bazar olmalıdır. Bunlar isə spontan təlim əsasında mümkündür. Spontan təlim özü-özünü təşkilatlandırır və daha çox informasiya daşıyır [1]. Avstriya iqtisadi məktəbinin nümayəndəsi L.Mises

©Şahin Vaqif oğlu Bayramov i.f.d., Mingəçevir Dövlət Universiteti
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

[2] sahibkarlığa fəaliyyət kimi yanaşır. Onun yanaşmasına görə sahibkarlıq gələcəyi dəyişən fəaliyyətdir. Uğurlu sahibkar gələcəyi daha düzgün proqnozlaşdıra bilir və digərlərindən fərqli olaraq, istehlakçıların tələblərini daha yaxşı başa düşür. Kirzner (1979) [3] isə sahibkarlığın iqtisadi inkişafda, xüsusilə rəqabətli bazarın formalaşmasında müstəsna rolunu qeyd edir.

Metodologiya

Biz Azərbaycan iqtisadiyyatının davamlılıq dərəcəsini kəmiyyətcə qiymətləndirmək üçün iki müxtəlif metoddan müqayisəli şəkildə istifadə edəcəyik. Birincisi C.Limin "Üçlük artım nəzəriyyəsinə" əsaslanan və M.C.Poh Gek tərəfindən inkişaf etdirilən qiymətləndirmə metodudur [4]. Sahibkarlıq sub-indeksi üzrə kəmiyyət göstəricisinin müəyyən edilməsi üçün Qlobal Sahibkarlıq Monitorunun (Global Entrepreneurship Monitor [5]) və Global Rəqabətlilik üzrə Hesabatın (Global Competetiveness Report [6]) məlumatlarından istifadə ediləcək. Bu zaman E-sub-indeksi üçün alt indekslər kimi biznes mühitinin əlverişliliyi; bazara giriş;bilik kapitalı; sahibkarlıq mədəniyyəti götürmək olar. Biznes mühitinin əlverişliliyi alt-indeksi Dünya Bankının Doing Business Tədqiqat Qrupu [7] tərəfindən hər il əksər ölkələr üçün hesablanır. Yuxarıda qeyd etdiyimiz kimi sahibkarlıq səviyyəsi kəmiyyətcə ölçüləbilən bir neçə indikatorun inteqral göstəricisi kimi qiymətləndirilir. Ona görə də sahibkarlıq səviyyəsinin xarici ticarət fəaliyyətinə təsirlərini kəmiyyətcə qiymətləndirmək üçün biz hər iki indikatorun tərkib hissələri arasındakı əlaqələrin qiymətləndirilməsini aparacağıq. Sahibkarlıq səviyyəsinin alt-göstəricilərindən biri biznes mühitidir. Son onillikdə bisnes mühitinin əlverişliliyinin xarici ticarətlə əlaqəsinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir. Qeyd edək ki, Doing Business tərəfindən hazırlanan "biznes mühitinin əlverişliliyi" indeksinin komponentlərindən biri elə "sərhədlərdə ticarət" adlanır. Biznesin aparılma şəraitinin əlverişliliyi nöqteyi nəzərindən, bu və ya digər dövlətin xarici iqtisadiyyat siyasətində proteksionizm və azad ticarətin nisbəti aşkarcasına ziddiyyət təşkil edir. Əgər daxili bazarda rəqabəti yumşaldan məhdud idxal tarifləri yerli sahibkarlar üçün əlverişlidirsə, ixracatdakı iqtisadi və inzibati maneələr, əksinə, iş mühitini pisləşdirir.

Sahibkarlıq şəraitinin əlverişliliyinin qiymətləndirilməsi üçün idxal tariflərindən istifadə etmək düzgün nəzticələr verməyə bilər. Lakin, xarici ticarət fəaliyyətinin yerinə yetirilməsi zamanı elə prosedurlar var ki, onlar biznes mühitinin əlverişliliyinə cəddi təsir göstərir. Doing Business əsas göstəricilər kimi aşağıdakıları seçir: məhsulların idxalı və ixracı zamanı tələb olunan sənədlərin sayı; məhsulların idxalı və ixracı zamanı tələb olunan imzaların sayı; idxal və ixracla bağlı prosedurlardan keçmək üçün tələb olunan zaman. Ölkəyə standart əmtəə mallarının idxalı və onun ölkədən ixracı zamanı məcburi olan bütün prosedurlar nəzərə alınır. Buraya bütün əməliyyatlar daxildir: idxalat zamanı – təyinat terminalına nəqliyyat vasitəsinin gəlişindən tutmuş, alıcı şirkətin anbarına yükün boşaldılmasına qədər, ixracat zamanı isə, fabrikdə qablaşdırılmadan tutmuş göndərilmə terminalından çıxışa qədər. Qiymətləndirmələr zamanı bəzi fərzlər də edilir. Biznes mühitinin qiymətləndirilməsində yalnız birbaşa xarici ticarət fəaliyyətinə aid olan komponentin idxal və ya ixrac fəaliyyətinə təsirini öyrənmək fikirimizcə doğru deyil. Çünki, Doing Business Tədqiqat Qrupunun öyrəndiyi və biznes mühitinin əlverişliliyini müəyyən edən digər alt-göstəricilərin də xarici ticarət fəaliyyətinə dolayısı ilə təsiri mümkündür. Məsələn, iqtisadi azadlıq, maliyyə azadlığı göstəriciləri xarici ticarət fəaliyyətinə ciddi təsir göstərir.

Sahibkarlıq səviyyəsinin qiymətləndirilməsi üçün "xüsusi sektorun ÜDM-də payı" göstəricisindən də istifadə etmək olar. Çünki, xüsusi sektor məhz sahibkarlıq fəlsəfəsinə əsaslanır. Biz hər iki metoddan istifadə edərək əldə edilən nəticələri müqayisə edə bilərik. İkinci halda xüsusi sektorun ÜDM-də payı göstəricisinə xarici ticarət balansının, xarici ticarət azadlığının, idxal və ixrac həcminin təsirini qiymətləndirəcəyik. Bu zaman göstəricilər arasında səbəbiyyət mahiyyətli əlaqənin olmasını müəyyən etmək üçün Dickey-Fuller testindən, kointeqrasiya metodundan, Granger testindən də istifadə ediləcək. Sahibkarlıq səviyyəsinə birbaşa xarici investisiyaların təsirini qiymətləndirmək üçün də eyni metodlardan istifadə edəcəyik.

Bəzi müqayisəli nəticələr

İqtisadiyyatın davamlılığının "sahibkarlıq səviyyəsi" alt-göstəricisi üçün biz "özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisindən istifadə edəcəyik. Lakin, sahibkarlıq səviyyəsini xarakterizə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

edən ən yaxşı göstərici "özəl sektorun ÜDM-də payı" göstəricisi ola bilərdi. Təəssüf ki, əksər ölkələr üçün bu göstərici üzrə məlumatların əldə edilməsi xeyli çətindir. Digər tərəfdən, belə hesab edirik ki, "biznes mühitinin əlverişliliyi", "bazara giriş", "bilik kapitalı" və "sahibkarlıq mədəniyyəti" üzrə göstəricilərin də nə səviyyədə olması özünün özəl sektora ayrılan kreditlərin ÜDM-də payı göstəricisində biruzə verir. Buna baxmayaraq, hər iki metodla əldə edilən nəticələri biz müqayisəli təhlil edəcəyik. "Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin 2018-ci il üzrə ilk 30 yeri tutan ölkələrin sıralanması 1-ci cədvəldə verilmişdir. Cədvəldən görünür ki, bu göstərici üzrə inkişaf etmiş ölkələr əksər inkişaf etməkdə olan ölkələri ciddi şəkildə üstələyir. 2018-ci ildə inkişaf etmiş ölkələrdən bir neçəsinin, məsələn, İtaliyanın göstəricisi (77%) bəzi inkişaf etməkdə olan ölkələrdən, məsələn, Nepal və Samoa-dan aşağıdır. Lakin, ÜDM-in mütləq həcmini nəzərə alsaq, əminliklə demək olar ki, bütün hallarda inkişaf etmiş ölkələrdə özəl sektora yerli kreditlərin həcmi inkişaf etməkdə olan ölkələrlə müqayisədə xeyli böyükdür. "Özəl sektora yerli kreditlərin ÜDM-də payı" (PSSGDP) göstəricisinin adambaşına ÜDM həcmi ilə əlaqəsi də deməyə əsas verir ki, iqtisadi inkişaf üçün bu göstərici zəruri amillərdən biridir, lakin kafi deyil.



Şəkil. 1.Özəl sektora yerli kreditlərin ÜDM-də payının (X-oxu) a.b. ÜDM-ə (Y-oxu) təsiri (2018)



Şəkil. 2. Özəl sektora yerli kreditlərin ÜDM-də payının a.b.ÜDM artımına təsiri (2019)

"Özəl sektora yerli kreditlərin ÜDM-də payı" (PSSGDP) göstəricisinin adambaşına ÜDM artımına təsirnin müqayisəsi də göstərir ki, iqtisadi artım ilə bu göstərici arasında universal əlaqə mövcud deyil. Lakin, iqtisadi inkişaf səviyyəsi yüksək olan ölkələrin əksəriyyətində bu göstərici digərləri ilə müqayisədə xeyli böyükdür. 1-ci cədvəldə 2018-ci il üzrə "Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin 50%-dən çox olduğu ilk 30 ölkənin sıralanması verilib. Cədvəldən görünür ki, bu ölkələr arasında Vyetnam, Komboca, Samoa, Nepal və Mavritaniyadan başqa digər ölkələr iqtisadi inkişaf səviyyəsinə görə qabaqcıl ölkələrdir. Sadaladığımız ölkələrdə "özəl sektora yerli kreditlərin ÜDM-də payı" göstəricisinin yüksək olması da ÜDM həcminin az olması ilə bağlıdır.

Cədvəl 1.

"Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin 50%-dən çox olduğu ilk 30 ölkənin sıralanması (2018)

Ölkələr	PSSGDP	Ölkələr	PSSGDP	Ölkələr	PSSGDP
ABŞ	179.3	Vyetnam	133.1	Portuqaliya	97.6
Yaponiya	168.8	İsveç	131.7	İslandiya	92.3
Danimarka	161.8	Sinqapur	121.9	Küveyt	89.3
Çin	161.1	Malaziya	120.4	Yunanıstan	89.2
Koreya Res.	150.3	Çili	116.6	Samoa	87.3
Tailand	144.6	Makao, Çin	113.8	Nepal	87.0
Norveç	144.3	Luksemburq	106.3	Mərakeş	85.3
Avstraliya	139.4	Niderland	105.7	BƏƏ	78.7
Cənubi Afrika	138.8	Fransa	104.7	Mavritaniya	78.0
Birləşmiş Krallıq	134.7	Kamboca	99.6	İordaniya	77.7

Mənbə: Cədvəl Dünya Bankının (*WB, 2020*) məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Azərbaycan 137 ölkə arasında bu göstərici üzrə 110-cu yerdədir və ölkədə özəl sektora ayrılan yerli kreditlərin ÜDM-də payı 2018-ci ildə cəmi 20.8 % olub. Bununla belə, bu rəqəm 2005-ci ildəki

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

9.5%-dən xeyli yüksəkdir. 2-ci cədvəldə 2018-ci il üzrə "özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin 50%-dən az olduğu ilk 30 ölkənin sıralanması verilmişdir. Cədvələ əsasən bu sırada yalnız inkişaf etməkdə olan ölkələr sıralanıb. Belə sıralama bir daha sübut edir ki, inkişaf etmiş ölkələrdə özəl sektora yönəldilən kreditlər aşağı və orta gəlirli ölkələrlə müqayisədə xeyli yüksəkdir.

Cədvəl 2

"Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin 50%-dən az olduğu ilk 30 ölkənin sıralanması (2018)

Ölkələr	PSSGDP	Ölkələr	PSSGDP	Ölkələr	PSSGDP
Əfqanıstan	3.3	**Tacikistan**	12.3	**Comoros**	15.9
Sierra Leone	5.7	**Mərkəzi Afrika**	12.3	**Timor-Leste**	15.9
Kongo DR	5.9	**Sudan**	12.4	**Guinea**	16.1
Qambia	6.8	**Madaqaskar**	12.9	**Libya**	16.2
Qvineya	8.1	**Qabon**	13.1	**Konqo R.**	16.5
İrak	8.7	**Uqanda**	13.7	**Zimbabve**	16.7
Çad	9.8	**Zambiya**	14.6	**Benin**	16.8
Niger	10.2	**Qvineya-Bissau**	14.8	**Liberiya**	17.8
Nigeriya	10.2	**Anqola**	14.9	**Burundi**	18.0
Qana	11.7	**Kamerun**	15.2	**Pakistan**	18.8

Mənbə: Cədvəl Dünya Bankının (*WB, 2020*) məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Özəl sektora verilən kreditlərin həcminin illik %-lə artımının ÜDM artımına təsiri (panel analiz). Özəl sektora verilən kreditlərin ÜDM-də payının həm kreditlərin mütləq həcmindən, həm də ÜDM həcmindən asılılığını nəzərə alaraq, biz özəl sektora verilən kreditlərin həcminin illik %-lə dəyişməsinin ÜDM artımına təsirini panel metodla qiymətləndirməyə çalışacağıq. İnkişaf səviyyəsinə görə fərqli 26 ölkədə 16 il ərzində özəl sektora verilən kreditlərin illik dəyişməsinin ÜDM artımına təsirinin panel analizi göstərir ki, bu göstəricilər arasında müəyyən səviyyədə asılılıq mövcuddur, (cədvəl 2). Tədqiqatın həm OLS metodu ilə, həm də RLS metodu ilə aparılması mənzərəni ciddi surətdə dəyişmir. Hər iki halda özəl sektora verilən kreditlərin illik artımı iqtisadi artıma pozitiv təsir edir. Lakin, tədqiqata iqtisadi inkişaf səviyyəsi müxtəlif olan ölkələr cəlb edildiyindən determinasiya əmsalı o qədər də yüksək deyil. Bu onu sübut edir ki, özəl sahibkarlıq subyektlərinə verilən kreditlərin artmasının iqtisadi artıma səbəb olması ölkələrin iqtisadi vəziyyətindən daha çox asılı olur. Kredit artımının mütləq iqtisadi artıma hiss ediləcək dərəcədə səbəb olacağını iddia etmək doğru deyil. Digər tərəfdən, kreditlərin iqtisadi artıma qısa müddətdə təsir etməyəcəyini və belə təsirlərin Laq=1, 2 şərti ilə təsir edəcəyini də iddia etmək olar. Əlbəttə, bütün bu hipotezlərin ayrı-ayrılıqda qiymətləndirilməsinə ehtiyac vardır. Yəni 1) ölkələrin iqtisadi səviyyəsinə görə qruplaşdırılaraq tədqiqata cəlb edilməsinə, 2) laq=1 və laq=2 şərti ilə panel analizlərin aparılması vacibdir. Özəl sektora verilən kreditlərin həcminin illik %-lə dəyişməsinin ÜDM artımına təsirinin panel analizi zamanı əldə edilən nəticələrin bəzi ölkələrin timsalında zaman sırası ilə bir daha dəqiqləşdirilməsi deməyə əsas verir ki, bu iki göstərici arasındakı əlaqə universal deyil və ölkələrin iqtisadi vəziyyətindən çox asılıdır. Belə ki, 3-cü cədvəldə inkişaf səviyyəsinə və özəl sektora ayrılan kreditlərin həcminə görə bir-birindən kəskin fərqlənən ölkələr üzrə aparılan zaman sırası analizinə görə bu iki göstərici arasında universal əlaqə yoxdur. Məsələn, ABŞ iqtisadiyyatı üçün bu göstəricilər arasında müəyyən qədər əlaqə olsa da iqtisadi inkişaf səviyyəsinə və bazar iqtisadiyyatının rəqabətliliyinə görə onunla müqayisə edilə bilən Yaponiyada, Danimarkada, Norveçdə, İsveçdə bu göstəricilər arasında əlaqə yoxdur. Lakin, inkişaf etmiş iqtisadiyyata malik ABŞ-da, Avstraliyada, Birləşmiş Krallıqda, həmçinin zəif iqtisadiyyata malik Əfqanıstanda, Konqo Demokratik Respublikasında bu göstəricilər arasında ciddi əlaqə müşahidə edilir.

Bəzi ölkələrdə özəl sektora verilən kreditlərin həcminin illik %-lə artımının ÜDM artımına təsiri (zaman sırası metodu ilə). Bəzi ölkələrdə özəl sektora verilən kreditlərin ÜDM-də payının ÜDM artımına təsiri (zaman sırası metodu ilə). "Özəl sektora verilən kreditlərin ÜDM-də payı" göstəricisi ilə ÜDM artımı arasındakı əlaqənin bəzi ölkələr üzrə qiymətləndirilməsi də "Özəl sektora verilən kreditlərin illik dəyişməsinin" ÜDM artımına təsiri ilə bağlı yuxarıda əldə etdiyimiz nəticələrə

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

yaxındır. Yəni, bu iki göstərici arasındakı əlaqəni də universal hesab etmək olmaz və ölkədən ölkəyə kəskin dəyişir.

Cədvəl 3.

"Özəl sektora ayrılan kreditlərin illik artım səviyyəsinin" və "ÜDM-in illik artım səviyyəsi" göstəriciləri arasında əlaqə (zaman sırası) (2001-2018/2019)

	R^2	əmsallar	SD	t-statistika	p-əhəmiyyətlilik
ABŞ	0.241248	1.398944	0.388001	3.605516	0.002183
		11.73446	5.04727	2.324912	0.032716
Yaponiya	0.049493	0.790067	0.434437	1.818599	0.086635
		-4.47039	4.751434	-0.94085	0.35996
Danimarka	0.013347	1.171032	0.500946	2.337641	0.031892
		2.069028	4.314573	0.479544	0.637663
Çin	0.220662	6.781139	1.128659	6.008137	1.41E-05
		13.75869	6.271221	2.193941	0.042427
Koreya Res.	0.537199	2.68571	0.379277	7.081134	1.84E-06
		11.01612	2.479896	4.442168	0.000357
Tailand	0.250356	1.879112	0.932787	2.014514	0.071633
		13.43313	7.350655	1.827474	0.097578
Norveç	0.051022	1.389968	0.352986	3.937746	0.001176
		2.230347	2.404704	0.927493	0.367451
Avstraliya	0.292037	2.597985	0.189922	13.67922	3.02E-10
		2.837542	1.104507	2.569058	0.020594
Cənubi Afrika	0.096733	2.476997	0.461222	5.370505	6.25E-05
		2.720638	2.078407	1.309001	0.209023
Birləşmiş Krallıq	0.284564	1.431353	0.356135	4.019134	0.00089
		7.77118	2.988535	2.600331	0.018667
Vyetnam	0.167265	5.965933	0.30799	19.37052	5.04E-13
		2.394591	1.295858	1.847881	0.082095
İsveç	0.009854	2.053143	0.600804	3.417325	0.003282
		0.891298	2.166969	0.411311	0.685983
Əfqanıstan	0.447201	5.401663	1.485758	3.635628	0.003918
		12.1048	4.057823	2.983077	0.012451
Sierra Leone	0.052203	4.032899	2.911103	1.385351	0.183855
		10.10606	10.44405	0.967638	0.346791
Konqo DR	0.242415	4.612624	0.627834	7.346884	1.14E-06
		2.888944	1.238655	2.332323	0.032234
Qambia	0.001373	2.624753	1.3954	1.881004	0.082557
		0.960205	7.181502	0.133705	0.895683

Mənbə: Cədvəl müəllif tərəfindən hesablanıb

Ölkələrin iqtisadi inkişaf səviyyəsi üzrə hesablamalar da universal nəticə göstərmir. 4-cü cədvəldən görünür ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu iki göstərici arasındakı əlaqə bəzi ölkələrdə mövcud olduğu halda, digərlərində mövcud deyil.

Cədvəl 4.

"Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" və "ÜDM-in illik artım səviyyəsi" göstəriciləri arasında əlaqə (zaman sırası) (1991-2018/2019)

	R^2	əmsallar	SD	t-statistika	p-əhəmiyyətlilik
ABŞ	0.011515	2.582044	1.899845	1.359081	0.185366
		-0.00627	0.011173	-0.56084	0.579533
Yaponiya	0.003116	1.822654	3.185603	0.572154	0.571951
		-0.00511	0.017581	-0.29051	0.773647
Danimarka	0.172837	2.817962	0.700082	4.025189	0.000414
		-0.01181	0.004973	-2.37523	0.024899
Çin	0.398868	15.70689	1.675165	9.376323	5.55E-10
		-0.05902	0.013944	-4.23264	0.000239
Koreya R.	0.236232	8.76359	1.628175	5.382463	1.09E-05
		-0.04319	0.014946	-2.88981	0.007514
Tailand	0.000901	2.284014	5.751304	0.39713	0.698869
		0.0043	0.043164	0.09961	0.922446
Norveç	0.127414	4.006127	2.137679	1.874054	0.078216
		-0.02721	0.017271	-1.57554	0.133557
Avstraliya	0.050234	2.794491	0.996223	2.805087	0.009395
		-0.01103	0.009403	-1.17267	0.25156

Mənbə: Cədvəl müəllif tərəfindən hesablanıb

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

"Özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisinin və onun illik dəyişməsinin xarici ticarət dövriyyəsinə və onun illik dəyişməsinə təsiri. Biz "özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisini sahibkarlığın inkişaf göstəricisi kimi qəbul etdiyimizdən sahibkarlıq ilə xarici ticarət fəaliyyəti arasındakı əlaqəni müəyyən etmək məqsədilə bu göstəricilər arasındakı korrelyasiya əlaqəsini panel analizlə və zaman sırası metodları ilə qiymətləndirəcəyik. Qeyd edək ki, sadə məntiqlə mülahizə yürütsək, sahibkarlıq səviyyəsinin və ya ölkədə biznes mühitinin əlverişli olması xarici ticarət fəaliyyətinə müsbət təsir etməlidir. Biznes mühitinin mühüm tərkib hissəsi olan "xarici ticarət azadlığı" nə qədər yüksək olarsa, sahibkarlar daha aktiv şəkildə idxal və ixracla məşğul olar. "Xarici ticarət azadlığı" daha çox idxal fəaliyyətinə təsir edir. Ölkədəki sahibkarlıq subyektləri də biznes mühitinin əlverişliliyindən istifadə edərək həm idxal əməliyyatlarını, həm də ixrac əməliyyatlarını genişləndirmək imkanı qazanırlar. Sahibkarlıq səviyyəsini qiymətləndirmək üçün yuxarıda istifadə etdiyimiz göstərici, yəni "özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisi də biznes mühiti ilə bağlıdır. Biznes mühiti zəif olduğu halda sahibkarlar kreditdən yararlanmağa cəhd etmirlər. Əks halda onların kreditlərdən mənfəət əldə etmək imkanları olmaz. Ona görə də biz yenə sahibkarlıq mühiti ilə xarici ticarət fəaliyyəti arasındakı əlaqəni müəyyən etmək məqsədilə "xarici ticarətin azadlığı" göstəricisindən deyil, "özəl sektora ayrılan kreditlərin ÜDM-də payı" göstəricisindən istifadə edəcəyik. Xarici ticarəti xarakterizə edən göstərici kimi, "ticarət dövriyyəsinin ÜDM-də payı" götürüləcək. Hər iki göstərici üzrə məlumatlar Dünya Bankının rəsmi məlumatlar bazasından əldə edilib.



Şəkil. 3. Özəl sektora kreditlərin ÜDM-də payı (X oxu) ilə ticarət həcminin ÜDM-də payı (Y-oxu) arasındakı əlaqə



Şəkil. 4. Özəl sektora kreditlərin ÜDM-də payının dəyişməsi (X oxu) ilə ticarət həcminin ÜDM-də payının dəyişməsi (Y-oxu) arasındakı əlaqə

3-cü və 4-cü şəkildə özəl sektora verilən kreditlərin ÜDM-dəki payının ticarət dövriyyəsinin ÜDM-də payı ilə əlaqəsi (2018) və bu göstəricilərin 2018-2019-cu illərdə dəyişmələri arasındakı əlaqə verilib. Hər iki şəkildə müxtəlif inkişaf səviyyəsinə malik olan 130 ölkə üzrə məlumatlardan istifadə edilib. Şəkillərdən görünür ki, bu iki göstərici arasında universal əlaqə mövcud deyil. Burada da müxtəlif amillərin təsiri özünü göstərir. Birincisi, özəl sektora verilən kreditlər əksər hallarda ölkə daxilində mal və ximətlərin istehsalına sərf edilir. İkincisi, xarici ticarət sahibkarlıqla yanaşı digər çoxlu sayda amilərdən asılıdır. Xarici ticarət dövriyyəsi də sahibkarlıq səviyyəsi ilə, həmçinin biznes mühitinə aid digər amillərdən, məsələn, "xarici ticarət azadlığından", valyuta kurslarından asılı olduğundan onun bir göstəricidən-özəl sektora kreditlərin ÜDM-də payından asılılığı hiss edilmir. 2001-2018-ci illəri və müxtəlif iqtisadi inkişaf səviyyəsində olan ölkələri əhatə edən panel analiz də yuxarıda qeyd etdiyimiz iddianı təsdiq edir. Belə ki, panel analizin nəticələri sübut edir ki, "özəl sektora verilən kreditlərin ÜDM-də payı" göstəricisi xarici ticarət dövriyyəsinin ÜDM-də payına təsir etmir. Bu nəticə RLS metodu ilə bir qədər fərqlənsə də determinasiya əmsalının çox az olması etibarlı əlaqənin olmadığına əsas verir. Əldə edilən nəticələrin bəzi ölkələr üzrə zaman sırası metodu ilə bir daha qiymətləndiriməsi deməyə əsas verir ki, xarici ticarət dövriyyəsi ilə sahibkarlıq səviyyəsi arasındakı əlaqə hər bir ölkənin iqtisadi vəziyyətindən asılıdır və bu iki göstərici arasında universal

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

əlaqə yoxdur. Məsələn, Avstraliya, Bolqariya və Danimarka üçün belə əlaqə mövcud olsa da Braziliya və Çin üçün belə əlaqə mövcud deyil (cədvəl 5).

Cədvəl 5.

"Özəl sektora ayrılan kreditlərin illik artım səviyyəsinin" və "ÜDM-in illik artım səviyyəsi" göstəriciləri arasında əlaqə (zaman sırası) (2001-2018/2019)

	R^2	əmsallar	SD	t-statistika	p-əhəmiyyətlilik
Avstraliya	0.54267	31.26021	1.647978	18.96883	9.46E-17
		0.086399	0.015555	5.554436	7.83E-06
Burundi	0.004326	31.59263	8.668332	3.644604	0.001173
		0.179189	0.533134	0.336104	0.73949
Benin	0.066816	47.22154	4.268168	11.06365	2.48E-11
		0.473536	0.347065	1.364402	0.184135
Bolqariya	0.30157	76.28269	8.136882	9.374928	7.99E-10
		0.532097	0.158807	3.350577	0.002474
Braziliya	0.026401	24.82978	2.021578	12.28238	2.5E-12
		-0.03071	0.036575	-0.83966	0.408754
Çin	0.030984	33.474	10.98673	3.046767	0.005252
		0.084722	0.092919	0.911784	0.370259
Danimarka	0.838803	61.65289	2.447301	25.1922	8.58E-20
		0.2033	0.017478	11.63159	8.34E-12

Biznes mühitinin əlverişliliyi və xarici ticarət. Biznes mühitinin əlverişliliyinin xarici ticarətə və ya onun hər hansı aspektinə təsiri ilə bağlı tədqiqatlara iqtisadi ədəbiyyatda az rast gəlinir. İlk baxışda belə iddia etmək olar ki, biznes mühiti əlverişli olarsa, onda kiçik və orta sahibkarlıq subyektləri daha çox olar və istehsal edilən məhsulların xarici bazara ixracı imkanları da genişlənər. Həmçinin biznes mühitinin əlverişliliyi imkan verər ki, daha keyfiyyətli məhsullar dünya bazarından idxal olunsun. Lakin, biznes mühitinin əlverişliliyinin müəyyən ölçüsü olduğundan onun "hansı istiqamətə" və "nə qədər" dəyişməsi idxal və ixrac əməliyyatlarının həcminə nə dərəcədə təsir edə bilər?" sualına cavab bu iki göstərici arasındakı kəmiyyət əlaqələrinin müəyyən edilməzini zəruri edir. Biznes mühitinin əlverişliliyi və xarici ticarət fəaliyyəti arasında qarşılıqlı təsirə həsr edilən tədqiqatlardan biri Commander və Svejnar (2011) [8] tərəfindən yerinə yetirilib. Biznes mühitinin əlverişliliyinin iqtisadiyyata müsbət təsiri bu tədqiqatda da əldə edilən nəticələrlə təsdiq olunur. Əlverişli olmayan biznes mühiti, iqtisadiyyata dövlət tərəfindən müdaxilə səviyyəsi yüksəkdirsə, vergi məsələləri ilə bağlı qeyri-müəyyənlik varsa, bütün bunlar iqtisadiyata mənfi təsir göstərir. Xarici ticarət və sahibkarlıq səviyyəsini xarakterizə edən göstəricilər arasındakı əlaqə daha çox ikincinin birinciyə təsiri formasında təzahür edir. Sahibkarlığın inkişafına stimul verən hüquqi çərçivə, o cümlədən, xarici ticarət rejiminin əlverişliliyi xarici ticarətin həcminə də pozitiv təsir göstərir.

Nəticə

Panel analizlərin əsas nəticəsi ondan ibarətdir ki, "özəl sektora ayrılan yerli kreditlərin ÜDM-də payı" göstəricisinin adambaşına ÜDM həcmi iqtisadi inkişaf üçün zəruri amillərdən biridir. Özəl sektora ayrılan yerli kreditlərin həcminin illik dəyişməsinin ÜDM artımına təsirinin panel analizi deməyə əsas verir ki, bu iki göstərici arasındakı əlaqə universal deyil və ölkələrin iqtisadi vəziyyətindən çox asılıdır. Panel analizin nəticələri sübut edir ki, "özəl sektora verilən kreditlərin ÜDM-də payı" göstəricisi xarici ticarət dövriyyəsinin ÜDM-dəki payına təsir etmir.

Ədəbiyyat

1. Boykin, Scott A. 2010. Hayek on Spontaneous Order and Constitutional Design. The Independant Review. 15(1) : 10-34
2. Wood, J. Stuart. 2005. The Developmet and Present State of the Theory of Entrepreneurship in Product and Asset Markets by Knight, Hayek, Schumpeter, Mises, Kirzner, Shackle, and Lackmann. Austrian Scholars Conference. Loyola University of New Orleans
3. Kirzner, Isreal. 1979. Preception, Opportunity, and Profit. University of Chicago Press. Chicago.
4. Mona Chew Poh Gek. Measuring economic sustainability of nations:Singapour as case study. School of Humanities and Social Sciences, 2013
5. Global Entrepreneurship Monitor. https://www.gemconsortium.org/report
6. The World Economic Forum. Global Competetiveness Index. http://reports.weforum.org/global-competitiveness-report-2018/?doing_wp_cron=1563563794.3027489185333251953125

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

7. World bank Group. Doing Business https://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2019
8. Commander S. and Svejnar J. (2011). Business environment, exports, ownership, and firm performance. The Review of Economics and Statistics, February 2011, 93(1): 309–337

Шахин Вагиф оглу Байрамов

Оценка воздействия внешней торговли на уровни предпринимательства

Резюме

В статье исследуется воздействие уровня предпринимательства на некоторые макроэкономические показатели с панельным методом, принимая категории «предпринимательство» как измеряемая. Как показателя уровня предпринимательства принимается «доля местных кредитов к частному сектору в ВВП». Автор приходит к таким заключениям, что показатель «доля местных кредитов к частному сектору в ВВП» является один из основных показателей для экономического роста. А панельный анализ показывает, что связи между показателями «изменение объема местных кредитов к частному сектору» и рост ВВП не универсальная и зависит от характера национальной экономики. Также панельный анализ доказывает, что показатель «доля местных кредитов к частному сектору в ВВП» не действует на «долю оборота внешней торговли в ВВП».

Ключевые слова: *уровень предпринимательства, бизнес среда, внешняя торговля, экономический рост*

Shahin Vaqif Bayramov

Assessing the impact of foreign trade on levels of entrepreneurship

Abstract

The article examines the impact of the entrepreneurship level on some macroeconomic indicators by a panel method, accepting the category of "entrepreneurship" as measurable. As an indicator of the level of entrepreneurship, the "share of domestic credits to the private sector in GDP" is taken. The author comes to such conclusions that the indicator "share of domestic credits to the private sector in GDP" is one of the main indicators for economic growth. A panel analysis shows that the relationship between the indicators "change in the volume of domestic credits to the private sector" and GDP growth is not universal and depends on the nature of the national economy. A panel analysis also proves that the indicator "share of domestic credits to the private sector in GDP" does not affect the "share of trade turnover in GDP".

Key words*: entrepreneurship level, business environment, foreign trade, economic growth*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 02.10.2020.
Çapa qəbul olunub: 12.10.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az